Dövlət Bayrağı Günü qeyd olunub

Noyabrın 8-də Qəbələ Mədəniyyət Mərkəzində 9-Noyabr Dövlət Bayrağı Gününə həsr olunmuş təntənəli bayram tədbiri keçirilib.

İdarə, müəssisə, təşkilatların əmək kollektivlərinin, ağsaqqalların və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə üçrəngli milli dövlət bayrağımızın ilk dəfə Azərbaycan Demokratik Respublikası hökumətinin 1918-ci il 9 noyabr tarixli qərarı ilə milli bayraq kimi qəbul edildiyi və 1920-ci ilin aprelinə qədər dövlət rəmzi kimi istifadə olunduğu, Sovet dövründə isə Azərbaycan SSR-in bayrağı ilə əvəz edildiyi qeyd olunub.

Cümhuriyyət bayrağının rəsmi olaraq 1990-cı il noyabrın 17-də isə ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MR Ali Məclisinin sessiyasında Naxçıvan MR-nın dövlət bayrağı kimi qəbul olunduğu diqqətə çatdırılıb.

Qeyd olunub ki, 1991-ci il fevralın 5-də ölkə ictimaiyyətinin tələbi ilə Azərbaycan Respublikasının Ali Soveti «Dövlət bayrağı haqqında» Qanun qəbul edərək üçrəngli bayrağa Azərbaycan Respublikasının Dövlət bayrağı statusu verib.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, hər il 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd edilir və bu bayram ölkədə qeyri-iş günü olan bayramların siyahısına daxil edilib.

Mədəniyyət mərkəzinin təqdim etdiyi azərbaycançılığa, dövlətçiliyə və vətənpərvərliyə həsr olunmuş ədəbi-bədii kompozisiya tədbir iştirakçılarında xoş ovqat yaradıb.

"Qəbələ"
İlkin Vəlizadə (foto).

Bayraq günü keçirilib

Aydınqışlaq kənd tam orta məktəbində 9 Noyabr Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir keçirilmişdir.

Təntənəli bayram tədbirində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Sonra məktəbin direktoru Sevil Nəbiyeva üç rəngli dövlət bayrağımızın 9 noyabr 1918-ci ildə Azərbaycan Demokratik Respublikası hökuməti tərəfindən qəbul edildiyini bildirmişdir. Sevil Nəbiyeva 18 oktyabr 1991-ci il tarixdə Azərbaycan Respublikası Dövlət müstəqilliyi Aktının və Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağının Dövlət bayrağı kimi qəbul edildiyini diqqətə çatdırmış, ölkəmizdə üç rəngli Dövlət bayrağının Azərbaycan Demokratik Respublikası Nazirlər Şurası binasının üzərində dalğalanmağa başladığı 9 noyabr tarixinin Dövlət Bayrağı Günü kimi qeyd olunduğunu qeyd etmişdir.

Bayram şənliyi məktəblilərin hazırladığı bədii proqramla davam etdirilmişdir.

Rəna Xancanova,
Aydınqışlaq kənd diyarşünaslıq klubunun müdiri.

Qəbələ - bənzərsiz turizm diyarı

Qəbələ rayonunda turizm sahəsi son zamanlar öz inkişafının yüksək mərhələsinə çatmışdır. Buna bir tərəfdən Qəbələ rayonunun əsrarəngiz təbiəti və coğrafi mövqeyi, digər tərəfdən də burada mövcud olan müasir turizm infrastrukturu stimul verir. Bölgəyə turistlərin cəlb olunması üçün otellərdə peşəkar personalın və əlavə xidmətlərin mövcudluğu mühüm şərtlərdən biridir. Hazırda Qəbələdə işi yüksək səviyyədə qurulmuş 19 mehmanxana və mehmanxana tipli obyekt fəaliyyət göstərir. Bu obyektlərdə ümumilikdə 2500-dən artıq yer, 907 nömrə və 163 kottec mövcuddur.

Bunun nəticəsidir ki, bura gələn turistlərin sayı ildən-ilə əhəmiyyətli dərəcədə artır. Son 3 ili müqayisə etsək görərik ki, əgər 2014-cü ildə Qəbələyə 49969 nəfər turist gəmişdirsə, 2015-ci ildə bu rəqəm 80200 nəfər, 2016-cı ildə isə 99755 nəfər olmuşdur.

2017-ci ilin 9 ayı ərzində qəbələyə gələn turistlərin sayı isə 218118 nəfərə çatmışdır.

Turist turlarının daha əyləncəli və rəngarəng olması üçün mədəni-maarif müəssisələrinin bədii kollektivləri, rayonun incəsənət ustaları müntəzəm olaraq onlara maraqlı musiqi proqramları ilə xidmət göstərir.

Rayonumuza gələn əcnəbi və yerli turistlər Qəbələdə yaşayan müxtəlif xalqların, etnik qrupların adət ənənələri, kulinariyası və folkloru ilə tanış olur, buradakı unikal multikulturalizm modelinə heyran qalırlar.

Qəbələnin Muçuq, Yeddi gözəl, Laza şəlalələri, "Rus" meşəsi, Nohur gölü, və digər möcüzəvi təbiət guşələri turistlərin həvəslə istirahət etdiyi məkanlardır.

Qəbələdə digər regionlardan fərqli olaraq turistlər üçün cəlbedici, onların marağına səbəb ola biləcək digər amillər də vardır. Zəngin flora və faunamızla, bölgənin bənzərsiz təbiəti ilə yanaşı, burada dövlət mühafizəsinə götürülmüş 93 tarixi abidə mövcuddur ki, bunların otuz biri ölkə əhəmiyyətli, altmış biri yerli əhəmiyyətli, biri isə dünya əhəmiyyətlidir. Abidələrin bəziləri turizm üçün əlverişli olduğuna görə onlar turizm marşrutuna salınmışdır.

Turist ekskursiyaları müntəzəm təşkil edilən abidələrin içərisində öz görkəmlərini tam və yaxud qismən saxlamış dünya əhəmiyyətli, arxeoloji abidə hesab olunan, antik dövrə aid qədim Qəbələ şəhəri və Səlbir ərazisi bu qəbildəndir.

(Ardı 6-cı səhifədə).

Milli intellektual oyunun rayon mərhələsi

Qəbələ Rayon Gənclər və İdman İdarəsi "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrası ilə əlaqədar noyabrın 1-də şəhər 1 nömrəli tam orta məktəbdə gənclərin daha geniş kütləsinin intellektual fəaliyyətə cəlb edilməsi, asudə vaxtlarının səmərəli təşkil olunması məqsədilə "Xəmsə" Milli İntellektual Oyunu üzrə yeniyetmələr arasında V Azərbaycan Çempionatının rayon seçim mərhələsini keçirmişdir.

Tədbirin açılış mərasimində rayon gənclər və idman idarəsinin baş məsləhətçisi Məhəmmədəli Səfərçinov çıxış edərək cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənc nəslə göstərilən qayğıdan və respublikada dövlət gənclər siyasətinin uğurlarından danışmış, tədbirin məqsəd və vəzifələri haqqında məlumat vermişdir.

Rayon mərhələsində yaşı 14-dən 17-dək olan 16 komandadan ibarət yeniyetmələr öz bilik-bacarıqlarını və intellektual səviyyələrini sınamışlar. Yarışın yekununda Bunud kənd tam orta məktəbin komandası I, şəhər 3 nömrəli tam orta məktəbin komandası II və Zarağan kənd 1 nömrəli tam orta məktəbin komandası III yerə çıxmışdır. Hər üç komanda Zaqatalada keçiriləcək zona mərhələsinə vəsiqə qazanmışdır.

Qalib komandalara rayon gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

Mübariz Ağayev,
gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.

II Regional Konfrans keçirilib

Noyabrın 5-də Qəbələ Regional "ASAN xidmət" Mərkəzində məktəbli qızlar üçün informasiya kommunikasiya texnologiyaları sahəsində II Regional Konfrans keçirilib.

Təhsil Nazirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, "Gilan Holdinq"in dəstəyi və "Azərbaycan Qadını İKT-də FEMMES DIGITALES" klubunun təşkilatçılığı ilə keçirilən konfransda informasiya kommunikasiya texnologiyaları sahəsində təqdimatlar edilib.

Qızlar arasında informasiya kommunikasiya texnologiyaları sahəsinə marağın artırılması məqsədilə keçirilən tədbirdə çıxış edən "Femmes Digitales klubu"nun üzvü olan "B.EST Solutions", "ASAN xidmət", "MONT", "Cybernet", "Azertelecom", "Ultra Technologies" və digər təşkilatların nümayəndələri İKT-nin cəmiyyətin həyatının bütün sferalarındakı rolundan danışıb, bu sahədə təhsilin və karyeranın Azərbaycan xanımları üçün açdığı imkanlardan bəhs ediblər.

Ölkəmizdə müxtəlif sahələrdə həyata keçirilən innovativ informasiya kommunikasiya texnologiyaları layihələri haqda məlumat verən natiqlər İKT sahəsində uğur əldə etmək istəyən qızlara "FEMMES DIGITALES" Klubunun verə biləcəyi dəstəyi də qeyd ediblər.

Daha sonra praktiki məşğələlərdə iştirakçılar əyani vəsaitlərdən istifadə edərək müxtəlif robot və avtomatlaşdırılmış sınaq mexanizmlərinin hazırlanması ilə tanış olub, bu sahədə başlanğıc biliklərə yiyələnmək imkanı əldə ediblər.

Proqram çərçivəsində qızlar arasında keçirilən "İT Startap üçün ən yaxşı ideya" müsabiqəsinin qaliblərinə sertifikat, kubok və hədiyyələr təqdim edilib.

"Qəbələ"